**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərə səfərləri davam edir. Fevralın 13-də Ağdam rayonuna səfər edən dövlət başçımıza və xanımına Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şərait barədə məlumat verildi. Bildirildi ki, Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı ən son innovativ texnologiyalar əsasında tikilib. Bir hektar sahəni əhatə edən qərargahın ərazisi düşərgə və inzibati hissədən ibarət olmaqla, inşası əsasən 6 komponent üzrə həyata keçirilib.**



# Prezidentin səfərləri Qarabağa qayıdışı sürətləndirir

Bildirildi ki, qərargahda innovativ tikinti materiallarından istifadə olunmaqla, yüksəkkeyfiyyətli modul tipli isti və soyuğa davamlı, ekoloji tələblərə cavab verən fərdi yaşayış və inzibati binalar inşa olunub. Təhlükəsizliyin təmin edilməsi məqsədilə müasir kamera müşahidə məntəqəsi yaradılıb, açıq və qapalı idman zalları, futbol, basketbol və voleybol meydançaları, ilkin tibbi yardım məntəqəsi, müxtəlif tədbirlər üçün iclas zalı və avtomobil dayanacaqları tikilib. Həmçinin burada günəş və bioqaz enerjisindən istifadə sistemləri quraşdırılıb və daxili yollar müasir işıqlandırma sistemləri ilə təchiz edilib. Yaşıllıq zolağında ilin hər fəslinə uyğun 30-dan çox növ ağac və bitki kolları əkilib və suvarılma üçün avtomatlaşdırılmış damcılama və çiləmə sistemləri quraşdırılıb. Dövlət atributlarına hörmət və ehtiramın göstəricisi kimi inzibati ərazinin tam mərkəzində Bayraq meydanı tikilib. Meydanın ətrafı abadlaşdırılıb, burada günəş enerjisi ilə qidalanan işıq dirəkləri quraşdırılıb.

Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimində iştirak edən dövlət başçısına və xanımına məlumat verildi ki, 6 hektardan çox ərazidə inşa olunacaq bu tibb müəssisəsində qəbul, terapiya, kardiologiya, cərrahiyyə, travmatologiya – ortopediya, ürək – damar cərrahiyyəsi, oftalmologiya, LOR, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya – reanimasiya, hemodializ şöbələri və əməliyyat bloku fəaliyyət göstərəcək. Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından və aptekdən ibarət olacaq. Müalicə ocağı ən müasir tibbi avadanlıqla, həmçinin Regional Kardiocərrahiyyə Mərkəzi xidmətini təmin etmək üçün angioqrafiya cihazı ilə təchiz olunacaq. Binanın zirzəmi hissəsindən isə stasionar tibbi xidmət və sığınacaq kimi istifadə ediləcək, ehtiyac yaranarsa, dərhal hərbi hospital kimi fəaliyyət göstərəcək. Həmçinin bildirildi ki, növbəti mərhələdə Ağdam rayonu üzrə daha bir neçə səhiyyə müəssisəsinin inşası nəzərdə tutulub. Belə ki, qarşıdakı dövrdə burada Gigiyena və Epidemiologiya Mərkəzi, Təcili Tibbi Yardım Stansiyası, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin binası, çoxprofilli modul tipli xəstəxana, onkoloji, 50 çarpayılıq psixiatriya və 50 çarpayılıq vərəm əleyhinə xəstəxanalar, 20 çarpayılıq Narkoloji Dispanser, Regional Perinatal Mərkəz və QİÇS-lə Mübarizə Mərkəzi, 20 həkim məntəqəsi və ya kiçik həcmli Ailə Sağlamlıq Mərkəzi, Regional Tibb Kolleci də inşa olunacaq.

Milli-mənəvi dəyərlərimizə daim xüsusi ehtiram və qayğı ilə yanaşan dövlət başçımız və birinci xanım Heydər Əliyev Fondu tərəfindən Ağdam Cümə məscidində aparılan bərpa – restavrasiya işlərinin gedişi ilə tanış oldular. Qeyd edildi ki, memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən 1868 – 1870-ci illərdə tikilən Ağdam Cümə məscidi işğal altında olduğu müddətdə şəhərdə ermənilər tərəfindən dağıntıya nisbətən az məruz qalan yeganə tikilidir. Dövlət başçımıza və birinci xanıma məlumat verildi ki, burada öncə örtük və sement birləşmələri tamamilə çıxarılacaq. Tarixi kərpiclərin zədələnməməsi və kompozitin divardan qopmaması üçün işlər əl ilə aparılacaq. Bərpa prosesinin ikinci mərhələsində fasadlar biogen böyümədən təmizlənəcək, zədələnmiş və ya qırılmış kərpiclər bərpa ediləcək, karxana daşı hörgüsü əhəng əsaslı birləşmiş məhlul ilə yenidən işarələnəcək. Daha sonra rəng nümunələri və yazı zolaqları tarixi xüsusiyyətlərə uyğun olaraq mineral rəngli materialla bərpa ediləcək.

Qeyd edək ki, səfər zamanı dövlətimizin başçısı və birinci xanım "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin "Ağdam-1" və "Ağdam-2" elektrik yarımstansiyalarının, "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzinin və digər obyektlərin açılışlarında iştirak ediblər. Prezident İlham Əliyev Ağdam Sənaye Parkında fəaliyyət göstərəcək alternativ və bərpa olunan enerji mənbələri ilə qidalanan işıq dirəklərinin, digər qurğuların və Xalça istehsalı müəssisələrinin, "Park Forest Otel Ağdam" mehmanxanasının və 209 mənzildən ibarət yeni yaşayış kompleksinin və 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının və digər obyektlərin təməlini qoyub.

Prezidentin hər səfəri qarabağlıların doğma yurdlarına köçəcəkləri günün yaxında olacağından xəbər verir. Sakinlərin orada rahat, hərtərəfli təmin olunmuş şəraitdə yaşamaları üçün dövlətimiz tərəfindən bütün zəruri işlər görülür. Prezident işğaldan azad edilmiş ərazilərə etdiyi səfərlərlə buna bir daha xüsusi diqqət yetirdiyini təsdiq edir.

***Aydın HÜSEYNOV,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti .- 2022.- 15 fevral.- S.9.